# “KİTABXANA-İNFORMASİYA MƏRKƏZİ” ÜZRƏ İSTİFADƏÇİ TƏLİMATI

BAKI – 2023

**1.** GİRİŞ.......................................................3

**2.** DAXİL OL.......................................................5

**3.** TARİX VƏ BU GÜN.......................................................6

**4.** VİRTUAL SƏRGİ.......................................................7

**5.** XƏBƏRLƏR.......................................................8

**6.** RƏQƏMSAL KİTABXANA .......................................................10

**7.** ELEKTRON KATALOQ.......................................................14

**8.** TƏDRİS NƏŞRLƏRİ.......................................................18

**9.** NADİR KİTABLAR.......................................................19

**10.** ONLİNE XİDMƏT.......................................................20

**11.** BİZİM NƏŞRLƏR.......................................................21

**12.** MEDİA.......................................................22

# 1. GİRİŞ

ADMİU-nun Kitabxana-İnformasiya Mərkəzinin oxucular üçün hazırlanmış səhifəsində elektron kitabxana resurslarının komplektləşdirilməsi, informasiya-axtarış sisteminin yaradılması, oxuculara virtual xidmətin təşkilinə dair məlumat bazaları saxlanılır. Kitabxana-İnformasiya Mərkəzinin səhifəsi bir neçə bölmədən ibarətdir:

- ❖ Tarix və bu gün
- ❖ Virtual sərgi
- ❖ Xəbərlər
- ❖ Rəqəmsal kitabxana

Kitabxana-İnformasiya Mərkəzinin səhifəsi üç hissədən ibarətdir:

- ✓ Menyu paneli



- ✓ Tarix və bu gün pəncərəsi

## TARİX VƏ BU GÜN

Son dövrlərdə Azərbaycanın qlobal informasiya məkanına sürətli inteqrasiyası və informasiya cəmiyyəti quruculuğunun nəticəsi olaraq elektron dövlətin yaradılması, elektron elmin təşəkkülü, intellektual mülkiyyət və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılır. Respublikamızda son onillikdə elektron kitabxanalar və ümumilikdə müasir kitabxana-informasiya mühitinin formalaşması sahəsində nəzərə çarpacaq uğurlar əldə edilmişdir.

Elektron kitabxanaların formalaşması sahəsində əsaslı işlər ölkə başçısı İlham Əliyevin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətini yaxşılaşdırılması haqqında" və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi barədə sərəncamlarından sonra daha intensiv aparılmağa başlanılmışdır. Bir çox kitabxanlarda qlobal təcrübə və standartlara inteqrasiya məsələlərində isə müasir inteqrasiya edilmiş kitabxana idarəetmə sistemlərinin, qərb kataloqlaşdırma qaydalarının tətbiqi, elektron arxivlərin formalaşması istiqamətində mühüm layihələr reallaşdırılır.

Hazırda elmi-fəlsəfi və ədəbi-bədii irsin toplanıb saxlanılmasında, cəmiyyətin intellek-tual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan ali təhsil müəssisələri kitab-xanalarının fəaliyyətinin təkmilləşdirilməsi, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsin-dən istifadə edilməsi, rəqəmsal informasiya banklarının yaradılması və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm işlər görülür. Həyata keçirilən tədbirlər ölkəmizin ali məktəb kitabxanalarının fondlarında cəmlənmiş zəngin sənəd-informasiya resurslarının oxucuların kitabxana-informasiya təminatındakı rolunun yüksəldilməsinə xidmət edir.

Ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kitabxanası elm, təhsil, mədəniyyət və incəsənətin ayrılmaz tərkib hissəsi kimi milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində və oxucuların elmi potensialının artırılması istiqamətində səmərəli fəaliyyət göstərir.

- ✓ Virtual sərgi pəncərəsi



✓ Xəbərlər pəncərəsi




✓ Rəqəmsal kitabxana pəncərəsi



# 2. DAXİL OL

➢ Kitabxana-İnformasiya Mərkəzinin veb səhifəsinə daxil olmaq və elektron məlumat bazalarından geniş istifadə etmək üçün https://admiu.edu.az/index.php ünvanına girərək menyu panelinin aşağı hissəsində kitabxana moduluna https://admiu.edu.az/index-lib.php keçid etmək lazımdır.




➢ Kitabxana-İnformasiya Mərkəzinin veb səhifəsinə daxil olmaq üçün həmçinin, təqdim olunan QR-kod vasitəsilə keçid etmək mümkündür.




➢ Kitabxana-İnformasiya Mərkəzinin veb səhifəsinə ADMİU-nun "Eduman" elektron universitetində "Müəllim kabineti" və "Tələbə kabineti"vasitəsilə də keçid etmək olar.

# 3. TARİX VƏ BU GÜN

İstifadəçi səhifəyə daxil olan zaman ilk gördüyü bölmə **"Tarix və bu gün"** bölməsidir. Burada Kitabxana-İnformasiya Mərkəzinin yaranması, inkişafı və müasir vəziyyəti haqqında ətraflı məlumat verilir.

⇐ Bölməyə keçid üçün QR-kod




TARİX VƏ BU GÜN

Son dövrlərdə Azərbaycanın qlobal informasiya məkanına sürətli inteqrasiyası və informasiya cəmiyyəti quruculuğunun nəticəsi olaraq elektron dövlətin yaradılması, elektron elmin təşəkkülü, intellektual mülkiyyət və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılır. Respublikamızda son onillikdə elektron kitabxanalar və ümumilikdə müasir kitabxana-informasiya mühitinin formalaşması sahəsində nəzərə çarpacaq uğurlar əldə edilmişdir.

Elektron kitabxanaların formalaşması sahəsində əsaslı işlər ölkə başçısı İlham Əliyevin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətini yaxşılaşdırılması haqqında" və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi barədə sərəncamlarından sonra daha intensiv aparılmağa başlanılmışdır. Bir çox kitabxanlarda qlobal təcrübə və standartlara inteqrasiya məsələlərində isə müasir inteqrasiya edilmiş kitabxana idarəetmə sistemlərinin, qərb kataloqlaşdırma qaydalarının tətbiqi, elektron arxivlərin formalaşması istiqamətində mühüm layihələr reallaşdırılır.

Hazırda elmi-fəlsəfi və ədəbi-bədii irsin toplanıb saxlanılmasında, cəmiyyətin intellek-tual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan ali təhsil müəssisələri kitab-xanalarının fəaliyyətinin təkmilləşdirilməsi, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsin-dən istifadə edilməsi, rəqəmsal informasiya banklarının yaradılması və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm işlər görülür. Həyata keçirilən tədbirlər ölkəmizin ali məktəb kitabxanalarının fondlarında cəmlənmiş zəngin sənəd-informasiya resurslarının oxucuların kitabxana-informasiya təminatındakı rolunun yüksəldilməsinə xidmət edir.

Ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kitabxanası elm, təhsil, mədəniyyət və incəsənətin ayrılmaz tərkib hissəsi kimi milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində və oxucuların elmi potensialının artırılması istiqamətində səmərəli fəaliyyət göstərir.

Mənbələr əsasında müəyyən olunur ki, professor-müəllim həyatının və tələbələrin elmi mütaliə prosesini təşkil etmək məqsədilə ADMİU-nun əsasını götürdüyü Bakı Teatr Məktəbində 1925-ci ildən kitabxana fəaliyyətə başlamışdır. Fəaliyyətə başladığı ilkin dövr-lərdə kitabxananın fondu xeyli kiçik olmuş, burada daha çox əski əlifbada çap olunmuş kitablar toplanmışdır.

Teatr Məktəbinin bazasında 1945-ci ildə Teatr İnstitutunun yaradılması ilə kitabxana yeni inkişaf yoluna qədəm qoymuşdur. Belə ki, təşkil olunan institutda yeni ixtisasların açılması və tələbə kontingentinin çoxalması kitabxana fondunun xeyli zənginləşməsinə və istifadəçilərin artımına səbəb olmuşdur. Fonda teatr, kino və rəssamlığa dair yeni nəşrlər daxil olmuşdur.

# 4. VİRTUAL SƏRGİ

Bu bölmədə Kitabxana-İnformasiya Mərkəzinə yeni daxil olan nəşrlər haqqında biblioqrafik məlumatlar və onların annotasiyası geniş oxucu kütləsinə çatdırılır.

Virtual sərgiyə keçid üçün QR-kod ⇨



# 5. XƏBƏRLƏR

Bu bölmədə Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyəti ilə bağlı ən son məlumatlar və yeniliklər istifadəçilərin nəzərinə çatdırılır.

Xəbərlərə keçid üçün QR-kod ⟹



XƏBƏRLƏR

09.12.2022

KİTABXANAÇILIQ VƏ İNFORMASİYA FƏALİYYƏTİNƏ DAİR YENİ TƏDRİS NƏŞRİ

Kitabxana-İnformasiya Mərkəzinin fonduna ixtisasyönümlü yeni tədris ədəbiyyatı daxil olub.

✔ Ətraflı

09.12.2022

ADMİU-DA "HÜSEYN CAVİD VƏ DÜNYA ROMANTİZMİNDƏ ŞƏRQ-QƏRB TƏMASLARI" MÖVZUSUNDA BEYNƏLXALQ TƏDBİR TƏŞKİL OLUNUB

Noyabr ayının 30-da ADMİU-da Azərbaycanın dahi dramaturqu, filosof-şair Hüseyn Cavidin 140 illik yubleyinə həsr olunmuş "Hüseyn Cavid və dünya romantizmində Şərq-Qərb təmasları" adlı konfrans keçirilib.

✔ Ətraflı

09.12.2022

"EMİN SABİTOĞLU. BİBLİOQRAFİYA" KİTABININ VƏ "EMİN SABİTOĞLU. SONATINA" NOT MƏCMUƏSİNİN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin M.F.Axundzadə adına Milli Kitabxana ilə birgə nəşr etdiyi "Emin Sabitoğlu.

✔ Ətraflı

19.10.2022

"PAŞA HƏYAT SIĞORTA" ŞİRKƏTİNİN YENİ KİTAB HƏDİYYƏSİ

ADMİU-ya "Paşa Həyat Sığorta" ASC tərəfindən yeni çapdan çıxmış 4 adda 235 nüsxə nəşr hədiyyə olunub.

✔ Ətraflı

# 6. RƏQƏMSAL KİTABXANA

Kitabxana-İnformasiya Mərkəzinin "rəqəmsal kitabxana"sı müasir informasiya fəaliyyətinin müxtəlif aspektlərini özündə əks etdirən 6 bölmə üzrə: "Elektron kataloq", "Tədris nəşrləri", "Nadir kitablar", "Onlayn xidmət", "Bizim nəşrlər", "Media" elektron sənəd-informasiya ehtiyatları ilə istifadəçilərin ixtiyarındadır.

⇐ Rəqəmsal kitabxanaya keçid üçün QR-kod



# 7. ELEKTRON KATALOQ

Veb səhifənin "Elektron kataloq" bölməsində "İRBİS-64" Avtomatlaşdırılmış Kitabxana Sistemində yaradılan və qlobal informasiya məkanına inteqrasiya imkanlarına malik analitik-informasiya bazasına salınmış sənədlər haqqında biblioqrafik məlumatlar yerləşdirilib. Bu bölməyə daxil olaraq müxtəlif nəşr növlərinə görə yaradılmış məlumat bazaları ilə tanış olmaq olar.




Elektron kataloqa keçid üçün QR-kod ⟹

Elektron kataloqdan istifadəyə dair nümunə:




Elmi tədqiqatların elekton kataloquna keçid üçün QR-kod ⇨

**ADMİU-nun professor-müəllim heyətinin yerinə yetirdiyi**

**Elmi-tədqiqat işləri**

1. **2015-ci il "Teatrşünaslıq"** kafedrasında yerinə yetirilmiş elmi-tədqiqat işləri / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2015. - 153 s. (Şifrəsi ET-35)
Nüsxə sayı:1 - ÜF(1)

2. **2015-ci ildə "Muzeyşünaslıq"** kafedrası üzrə yerinə yetirilmiş elmi-tədqiqat işləri / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2015. - 345 s. (Şifrəsi ET-33)
Nüsxə sayı:1 - ÜF(1)

3. **2015-ci ildə "Sosial-siyasi** elmlər" kafedrası üzrə yerinə yetirilmiş elmi-tədqiqat işləri / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2015. - 263 s. (Şifrəsi ET-31)
Nüsxə sayı:1 - ÜF(1)

4. **2015-ci ildə "Təsviri** sənət tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş elmi-tədqiqat işləri. - Bakı : ADMİU, 2015. - 87 s. (Şifrəsi ET-13)
Nüsxə sayı:1 - ÜF(1)

# 8. TƏDRİS NƏŞRLƏRİ

"Tədris nəşrləri" bölməsində ADMİU-nun müvafiq ixtisasları üzrə mühüm informasiya mənbəyi olan tədris resurslarının elektron variantı istifadəçilərə təqdim olunur.




Tədris nəşrlərinə keçid üçün QR-kod ⟹



Bu bölmədə elektron nəşrlər ADMİU-nun 5 fakültəsi: *Teatr sənəti, Audiovizual sənətlər, Rəssamlıq, Musiqi sənəti və Kulturologiya* üzrə kafedralara uyğun qruplaşdırılıb.















**1. Teatr sənəti** fakültəsinə 5 kafedra daxildir:

- Dram teartrı və kino aktyoru;
- Musiqili teatr aktyorluğu;
- Səhnə danışığı;
- Dram rejissoru və səhnə plastikası;
- Teatrşünaslıq.

Teatr sənəti fakültəsinin kafedralarının tədris nəşrlərinə keçid üçün QR-kod ⇨



Teatr sənəti fakültəsinin kafedrası üzrə tədris nəşrlərinin rəqəmsal məlumat bazasından istifadəyə dair nümunə:

# SƏHNƏ DANIŞIĞI

**"Səhnə danışığı" kafedrasının professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə elektron nəşrlər**

1. 

Dəmirçizadə, Ə. Müasir Azərbaycan dili. Hissə 1: fonetika, orfoepiya, orfoqrafiya: dərslik / Əbdüləzəl Dəmirçizadə ; red. A. Axundov. – Bakı: Şərq-Qərb, 2007. – 253 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000082075

2. 

Hacıyev, A. Müasir Azərbaycan dili: mühazirə mətnləri: dərs vəsaiti / Allahverdi Hacıyev; Tamam Mehrabova ; red. Ə.Tanrıverdi. – Bakı, 2014. – 367 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000385550

3. 

Quliyev, Ə. Səhnə danışığı: dərslik / Əzizağa Quliyev ; elmi red. N.Şəmsizadə. – Bakı: Ziya, 2011. – 279 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000264299

Səhnə danışığı kafedrasının tədris nəşrlərinə keçid üçün QR-kod ⟹

**2. Audiovizual sənətlər** fakültəsinə 3 kafedra daxildir:

- Kino və televiziya sənətləri;
- Ədbiyyat və dillər;
- Kinoşünaslıq və ekran dramaturgiyası.

Audiovizual sənətlər fakültəsinin kafedralarının tədris nəşrlərinə keçid üçün QR-kod ⟹



Audiovizual sənətlər fakültəsinin kafedrası üzrə tədris nəşrlərinin rəqəmsal məlumat bazasından istifadəyə dair nümunə:

## ƏDƏBİYYAT VƏ DİLLƏR

**“Ədəbiyyat və dillər” kafedrasının professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə elektron nəşrlər**

1.




Abbasov, İ. Mətbuat dili: normalar və qaydalar: KİV-nin dili üzərində aparılmış monitorinqin nəticələri / İlham Abbasov, B.Məmmədov, İ.Əsgər ; red. və ön söz. müəl. Ə. Amaşov. Bakı, 2021. – 95 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000760113

2.




Abdullayev, N. Nitq mədəniyyətinin əsasları: dərs vəsaiti / Nadir Abdullayev ; elmi red. Ə. Tanrıverdiyev. – Bakı: MBM, 2015. – 279 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000465366

3.




Abdullayeva, Y. XX əsr ədəbiyyatında modernizm: dərs vəsaiti / Yeganə Abdullayeva; elmi red.: Q.Quliyev; rəy.: T.Novruzov, Ş.Xəlilli. – Bakı: Mürtəcim, 2005. – 108 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000023385

⇐ Ədəbiyyat və dillər kafedrasının tədris nəşrlərinə keçid üçün QR-kod

**3. Rəssamlıq** fakültəsinə 3 kafedra daxildir:

- Təsviri sənət;
- Dizayn və dekorativ tətbiqi sənət;
- Təsviri sənət tarixi və nəzəriyyəsi.




Rəssamlıq fakültəsinin kafedralarının tədris nəşrlərinə keçid üçün QR-kod ⇨

Rəssamlıq fakültəsinin kafedrası üzrə tədris nəşrlərinin rəqəmsal məlumat bazasından istifadəyə dair nümunə:

## TƏSVİRİ SƏNƏT TARİXİ VƏ NƏZƏRİYYƏSİ

**"Təsviri sənət tarixi və nəzəriyyəsi" kafedrasının professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə elektron nəşrlər**

**1.**




Abasov, A. İslam memarlığı və inşaat / Arif Abasov, Elxan Abasov, Elmira Hüseynova ; elmi red.: P.Qurbanov, T.Məmmədova. – Bakı, 2010. – 83 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000547750

**2.**




Ağazadə, R. Azərbaycan memarlığı inkişaf yollarında / Rüfət Ağazadə, Yusif İbrahimli ; elmi red. E.Qasım-zadə. – Bakı: Şərq-Qərb, 2013. – 383 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000397370

**3.**



Azərbaycan xalçaları. Qarabağ inciləri. – Bakı, 2016. – 155 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000509368

Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının tədris nəşrlərinə keçid üçün QR-kod ⟹

**4. Musiqi sənəti** fakültəsinə 6 kafedra daxildir:

- Musiqi tarixi və nəzəriyyəsi;
- Muğam sənəti;
- Xalq çalğı alətləri ifaçılığı;
- İnstrumental ifaçılıq;
- Estrada sənəti;
- Aşıq sənəti.

Musiqi sənəti fakültəsinin kafedralarının tədris nəşrlərinə keçid üçün QR-kod ⇨



Musiqi sənəti fakültəsinin kafedrası üzrə tədris nəşrlərinin rəqəmsal məlumat bazasından istifadəyə dair nümunə:

## MUĞAM SƏNƏTİ

Muğam sənəti kafedrasının tədris nəşrlərinə keçid üçün QR-kod ⟹

**"Muğam sənəti" kafedrasının professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə elektron nəşrlər**

1. 


Abdulla, B. Azərbaycan mərasim folkloru / B.Abdulla ; red. R.Bədəlov. – Bakı: Qismət, 2005. – 207 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000002833

2. 


Abdullayeva, S. Azərbaycan xalq çalğı alətləri: musiqişünaslıq-orqanoloji tədqiqat / S. Abdullayeva; elmi red.: R.Zöhrabov. – Bakı: Adiloğlu, 2002. – 454 s.

https://www.musicacademy.edu.az/images/elmi_neshrler/s_abdullayeva_book_1.pdf

4. 


Axundova, G. Azərbaycanda xanəndəlik ənənəsinin və vokal mədəniyyətinin yaranması və inkişafı: monoqrafiya / G.Axundova; elmi red. J.Qədimova. - Bakı: ADPU, 2009. - 160 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000092646

5. 


Babayev E. Ənənəvi musiqimiz: müşahidələr və mülahizələr / E.Babayev ; elmi red. F.Əliyeva. - Bakı: Elm, 2000. - 116 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000014675

**5. Kulturologiya** fakültəsinə 4 kafedra daxildir:

- Muzeyşünaslıq;
- Sosial-mədəni fəaliyyət;
- Turizm və kitabxana-informasiya fəaliyyəti;
- Sosial-siyasi elmlər.




⇐ Kulturologiya fakültəsinin kafedralarının tədris nəşrlərinə keçid üçün QR-kod

Kulturologiya fakültəsinin kafedrası üzrə tədris nəşrlərinin rəqəmsal məlumat bazasından istifadəyə dair nümunə:

## TURİZM VƏ KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİ

⇐ Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının tədris nəşrlərinə keçid üçün QR-kod

**"Turizm və kitabxana-informasiya fəaliyyəti" kafedrasının professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə elektron nəşrlər**

1. 


Abadov, M. Turizm məhsulunun tərtibi texnologiyası / Məsim Abadov; elmi red. F.Məmmədov. – Bakı: Elm, 2011. – 136 s.

https://www.ebooks.az/view/KTs70dkn.pdf

2. 


Ağakərimov, M. Ekskursiya və ekskursiya rəhbəri : dərs vəsaiti / Müzəffər Ağakərimov, Samir Baba-zadə; elmi məsl. F.Qurbanov ; elmi red. H.Soltanova ; red. S.Rəhimov. – Bakı : Oskar NPM, 2006. – 175 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000010845

3. 


Allahverdiyev, B. Ümumi kitab tarixi: tədris-metodik vəsait / Bayram Allahverdiyev ; elmi red. İ.Vəliyev. – Bakı : Azərbaycan Milli Ensiklopediyası, 2003. – 384 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000002184

4. 


Aslan, K. Dünya kitabxanaları tarixi: dərs vəsaiti / Knyaz Aslan; elmi red. A.Xələfov. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2010.– 446 s.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000221178

# 9. NADİR KİTABLAR




Bu bölmədə Kitabxana-İnformasiya Mərkəzin sənəd-informasiya resursları fondunun elmi tədqiqi nəticəsində 1900-1940-cı illərin nəşri olan teatr və rəssamlıq sahəsini əhatə edən nadir və qiymətli kitablar haqqında məlumat verilir. Bu nəşrlər 2011-ci ildə "Azərbaycanın kitab abidələri" dövlət reyestrinə daxil edilib.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxana fondunda saxlanılan nadir kitab nüsxələri**

| | |
|---|---|
| **1. Müəllifin adı,soyadı:** | ____ |
| **Adı:** | Бальные танцы |
| **Nəşr yeri və ili:** | Рига, 1954 |
| **Həcmi:** | 322 стр. |
| **Formatı:** | ____ |
| **Materialı** | ____ |
| **Fiziki-kimyəvi texnoloji vəziyyəti:** | ____ |
| **Mühafizə rejimi:** | ____ |
| **Daxil olma tarixi:** | ____ |
| **Annotasiyası:** | ____ |
| **Xüsusi qeydlər:** | ____ |
| **Nüsxələrin sayı:** | ____ |
| **Yerləşdiyi ünvan:** | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxana fondu |
| **2. Müəllifin adı,soyadı:** | Белецкий А. |
| **Adı:** | Старинные театры России |
| **Nəşr yeri və ili:** | М. 1923 |
| **Həcmi:** | 103 стр. |
| **Formatı:** | ____ |
| **Materialı** | ____ |
| **Fiziki-kimyəvi texnoloji** | ____ |

2129

⇐ Nadir kitablar haqqında məlumata keçid üçün QR-kod

# 10. ONLAYN XİDMƏT

Bu bölmədə istifadəçilər Kitabxana-İnformasiya Mərkəzinin sosial media ünvanlarına müraciət edərək sənədləri sifariş verə bilər. Rəqəmsal variantı mövcud olan nəşrlərin elektron çatdırılması təmin olunacaq. Bölmə həmçinin, istifadəçilərə məsafədən sorğu (virtual) biblioqrafik sorğu xidmətini təqdim edir. Bölməyə daxil olmaqla kitabxanaya gəlmədən, iş və ya yaşayış yerindən ayrılmadan İNTERNET vasitəsilə konkret nəşrin (kitab, jurnal, not və s.) Kitabxana-İnformasiya Mərkəzinin fondunda olub-olmaması haqqında məlumat əldə etmək olar.

⇐ Onlayn xidmətdən istifadə üçün QR-kod






# 11. BİZİM NƏŞRLƏR




Bizim nəşrlər bölməsinə keçid üçün QR-kod ⟹



BİZİM NƏŞRLƏR



1. Əsgərova, T., Mürsəlov N.. Sənəd-informasiya resursları fondunun cari nəşrləri : annotasiyalı elmi-biblioqrafik göstərici. Cild 1 / Tamilla Əsgərova, Natiq Müsəlov; elmi red. : G.Əliyeva-Kəngərli ; rəy. : K.Tahirov, A.Babayev ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2020. - 160 s.
*Azərbaycanın ali məktəb kitabxanaları içərisində ilk dəfə olaraq tərtib olunan bu fundamental elmi-biblioqrafik resursda 2019-cu ildə ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin fonduna Azərbaycan və xarici dillərdə yeni daxil olan nəşrlər (kitab, magistr dissertasiyası və jurnallar) haqqında analitik məlumatlar verilib. Kitaba daxil edilən nəşrlər Universal Onluq Təsnifat (UOT) cədvəllərinə uyğun olaraq elm sahələri üzrə sistemləşdirilib. Biblioqrafik mənbədən səmərəli və operativ istifadəni təmin etmək məqsədilə sənəd-informasiya resursları müəlliflərin və ya sərlövhələrin əlifba sırası, eləcə də, fondda yerləşdiyi şifrələri ilə birlikdə verilib.*



2. Əsgərova, T. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müdafiə olunmuş magistr dissertasiyaları (2012-2020-ci illər) : elmi-metodik və biblioqrafik vəsait / Tamilla Əsgərova ; elmi məsləh. : G.Əliyeva-Kəngərli ; ön söz : S.Əliyeva ; ixtisas red.: N.Mürsəlov ; rəy.: A.Abdullayeva, P.Kazımi ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2021. - 80 s.
*Vəsait ADMİU-da magistr dissertasiyalarının tərtibinə dair ümumi qaydaları özündə əks etdirir. İlk dəfədir ki, ADMİU-da 2012-2020-ci illərdə müdafiə olunmuş və Kitabxana-informasiya Mərkəzinin fondunda saxlanılan magistr dissertasiyalarının biblioqrafik göstəricisi bu vəsaitdə oxuculara təqdim edilir. Dissertasiyalar Universal Onluq Təsnifat (UOT) cədvəllərinə əsasən fakültələrə uyğun olaraq elm sahələri üzrə sistemləşdirilib. Elmi-metodik və biblioqrafik vəsait ADMİU-nun professor-müəllim heyəti, tələbə və magistrantlarının istifadəsi üçün nəzərdə tutulub.*

# 12. MEDİA

"Media" bölməsi Kitabxana-İnformasiya Mərkəzinin sənəd-informasiya resursları fonduna daxil olan qəzetlərdən virtual rejimdə istifadə etmək məqsədilə onların veb səhifələrinə keçid üçün hazırlanmışdır.




⇐ Mediadan istifadə üçün QR-kod